# Azərbaycanda silah istehsalının tarixi

*(əvvəli ötən sayımızda)*

**Ölkəmizin ərazisində ən qədim zamanlardan istifadə olunan müdafiə silahları arasında döyüş baş örtükləri xüsusi yer tuturdu. İlk döyüş başlıqları göndən hazırlanırdı. Metal başlıqlar Azərbaycan hərb sənətində artıq e.ə. I minilliyin əvvəllərində tətbiq olunmuşdur. Azərbaycan konusvari dəbilqələri qədim Avropa dəbilqələrindən fərqlənirdi: belə dəbilqə başı nəinki kəsici silahlardan (qılınc, palaş), həm də zərbə silahından (döyüş baltası, şeşpər və s.) yaxşı qoruyurdu. Silah konusvari dəbilqənin üzərindən sürüşür və hündür ucluq düz zərbə endirməyə imkan vermirdi.**



Dəbilqələrin aşağı hissələrinə metal halqalı toxunma torlar bərkidilirdi. Bu torlar çiyinə düşərək və çənənin altında bağlanaraq, boğazı, qulaqları və üzün bir hissəsini, çiyində olan zaman isə həm də çiyinləri qoruyurdu. Tədqiqatlardan məlum olur ki, ümumilikdə ilk orta əsrlərdə Azərbaycanda 3 dəbilqə növündən sferik dəbilqələrin iki nözü (yarımkürəvi və yumurtavari) və konusvari dəbilqələrdən istifadə edilmişdir. XVII və XVIII əsrlərdə istifadə edilən dəbilqələrin formaları dövrə aid Azərbaycan miniatürlərinin təsvirləri və Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında öyrənilir. Muzeyin fondunda Şamaxı, Təbriz və Azərbaycanın digər şəhərlərində istehsal edilən 35 ədəd dəbilqə mühfizə olunur. Bu dəbilqələrdən doqquzu XVIII -XIX əsrin əvvəllərinə aid edilir.

Müdafiə silahı kimi zirehli əsləhə kiçik dəmir təbəqələrdən hazırlanır, döyüşçünü hücum silahlarının zərbəsindən qorunmaq üçün geyinilirdi. Məftil vasitəsi ilə bir-birinə bağlanmış təbəqələr sıx toxunurdu. Əsləhə bədəni qoruyan əsas hissədən və əlavə hissələrdən (döşü, qarın nahiyyəsini və əl-ayaqları qorumaq üçün) ibarət idi. Azərbaycan ustaları zərbəyə davamlı, lakin nazik və yüngül, hərəkətə mane olmayan əsləhələr yaratmaqda mahir idilər. Rasim Əfəndi özünün "Azərbaycan dekorativ tətbiqi sənətləri" adlı kitabında 1580-cı ildə Bakını səyahət edən ingilis səyyahının təəssüratlarından bəhs edərək onun yerli əsgərlərin əynində polad və gümüşlə bəzədilmiş zirehli paltarlara valeh olduğunu yazırdı.

Orta əsrlərdə zirehli əsləhələr 3 növdə hazırlanırdı: yumşaq, bütöv dəmir və halqalı.

Halqalı əsləhələr Azərbaycan ərazisində e.ə I əsrə aid arxeoloji qazıntılar zamanı Quba rayonunun ərazisindən tapılmışdır. Halqalı əsləhə metal halqalardan ibarət köynək quruluşlu hərbi geyim olub 15 mindən çox halqadan toxunurdu. Belə müdafiə silahları əvvəllər qalın göndən tikilir, sonralar üstünə metal lövhələr də bənd edilirdi. Daha qədim əsləhələr 12-16 kq, son dövr əsləhələri isə 5-9 kq olurdu. Halqalı əsləhələrin istehsal texnologiyasında qaynaq-pərçim texnikasından istifadə edilirdi. Piyadalar uzun, süvarilər isə qısa və aşağı hissələrində, eləcə də ön və arxa tərəflərində kəsikləri olan zirehlər geyirdilər. Halqalı zirehlər Gəncə, Şamaxı, Təbriz, Dərbənd şəhərlərində daha çox istehsal olunurdu.

Halqalı əsləhələr hava keçirir, elastik olur (çantada daşımaq mümkün olurdu) və çəkisi insan bədəninə bərabər olurdu. Bütün bu keyfiyyətləri halqalı zirehin Azərbaycanda geniş yayılmasına səbəb olmuşdur. Halqalı əsləhələrin bütün növlərinə Milli Azərbaycan Tarixi Muzeyində rast gəlmək olar.




Döyüşçünün müdafiəsini daha da möhkəmlətmək məqsədi ilə zirehlərin üstündən əlavə olaraq digər müdafiə vasitələri də taxılırdı. Belin və sinənin müdafiəsi sinəbəndlərin hesabına təmin edilirdi. Sinəbəndlər kəmərlərlə sinədən asılan polad lövhələrdən ibarət idi. Onların üstü qızılı, gümüşü işləmələrlə, nəbati naxışlarla və quran ayələri ilə bəzədilirdi.

Əlavə müdafiə elementlərindən olan qolçaqlar isə əlin biləkdən dirsəyə qədər olan hissəsini örtürdü. Qolçaqlar əsas və əlavə hissədən ibarət idi. Bazunun iç tərəfini qorumaq üçün qolçaqlara tor halqalar birləşdirilirdi.

Qədim dövr Azərbaycan döyüşçüsünün ən vacib müdafiə elementlərindən biri də qalxan idi. İlk zamanlar iri, düzbucaqlı formada qalxanlardan istifadə edilirdi. Bu növ qalxanlar döyüş zamanı torpağa sancılır, möhkəm sipər kimi piyadaları qoruyurdu. Belə qalxanlar əsasən ağacdan və dəridən düzəldilirdi. Ağac qalxanların səthi metalla örtülürdü, mərkəzdə gözəl bəzədilmiş umbon yerləşdirilirdi. Kiçik dairəvi, dəri qalxanların dərəgah, böyük ölçülü qalxanların isə lamt, tərş kimi növləri var idi. Polad qalxanlar qabarıq şəkildə olurdu. Qalınlığının azalması üçün polad qalxanlar kiçik ölçüdə və ağır çəkidə hazırlanırdı. Qalxanlardan həm süvari, həm də piyada dəstələrində istifadə olunurdu. Hərbi yürüş zamanı qalxanları aşırma qayışlarda arxada, döyüş vaxtı isə ya sol əldə, ya da sinədə daşıyırdılar.

Azərbaycan ərzisində istifadə edilən ən qədim silah nümunələri hücum silahlarının bir qolu olan soyuq silah qrupuna aiddir. Bunlara Mingəçevir, Şamaxı, Nüydi, Qırlar, Uzunboylar adlı yaşayış yerlərindən, habelə Qəbələ, Quba, Şəmkir, Lənkə-ran, Lerik və digər Azərbaycan rayonlarındakı nekropollardan tapılmış qılınc, xəncər, yay-ox, nizə, mizraq (cida), cəng yabası, sapand daşları, "dübaş" adlanan ikipərli nizə ucluqları, kəməndsalan, kəməndqaytaranları misal göstərə bilərik.

Soyuq silahlar tipoloji xüsusiyyətinə görə sancma (cəng yabası, cida), kəsmə (təbərzin, qılınc, xəncər), atma (kəmənd, yay-ox, sapand, nizə, "dübaş" adlanan haça nizə), vurma (toppuz, gürz, əmud, şeşpər) və s. kimi də təsnif olunur.

Bu silah növünə aid olan ox-yay hələ ibtidai icma dövründən geniş yayılmışdır. Bəlli olduğu kimi, qədimdə ovçuluqda istifadə olunan bu silah sonralar əsl döyüş alətinə çevrilmişdir. F.Engels ox və kamanın ixtirasını yüksək qiymətləndirərək yazırdı: "İnsan cəmiyyətinin texnoloji və mədəni inkişafını mərhələlərə ayırsan barbarlıq üçün dəmir qılınc, mədəniyyət üçün odlu silah nədirsə, vəhşilik dövrü üçün də ox və kaman eyni şey idi".

Ox ucları formalarına və ölçülərinə görə müxtəlif hazırlanırdı. Onların bir qrupunun ucluğu yarpaqvari, digərininki isə rombvarı olurdu. Bu ox ucluqları arasında yarpaqvarı ox ucluqları daha çox hazırlanırdı. Yarpaq və rombvarı ox uclarının ən kiçiyi 4, 5, ən böyüyü isə 9 sm uzunluğundadır.

Bakıdan arxeoloji qazıntılar zamanı aşkar olunan ox ucluqları öz quruluşlarına görə əvvəlkilərdən fərqlənirlər. Bu növ ox uclarının sulquncu uzundur. İçərisində sulquncu tilli olanlar da vardır ki, bu da müasir tüfəng süngüsünün formasını xatırladır. Belə ox uclarının mənşəyi qədimdir.

Orta əsrlərdə geniş yayılmış silah növlərindən biri də nizədir. Azərbaycanın orta əsr şəhərlərindən arxeoloji qazıntılar nəticəsində xeyli, həm də müxtəlif formalı nizə ucluqları əldə edilmişdir. Məsələn, arxeoloji qazıntılar nəticəsində Bakıdan tapılmış nizə ucluğunun uzunluğu 4.5sm, ağaca keçirilən hissəsinin diametri isə 1.7sm-dir. Bəhs etdiyimiz nizənin eyni oxşarı Beyləqanda aparılan qazıntılar zamanı aşkar edilmişdir. IX-XIII əsrlərə aid belə konusvarı nizə ucluqları ancaq ölçüsünə görə bir-birindən fərqlənirdi. Beyləqandan tapılan nizə ucluğunun uzunluğu 11 sm idi. Nizə ucluqları konusvari və yarpaqvarı formadadır. Nizə ucluqlarının dəstəyi ağacdan olduğu üçün uzun müddət torpaqda qaldığından ağac çürümüş və qazıntı zamanı yalnız metal ucluqlar tapılmışdır.

Ənənəvi döyüş silahlarından olan qılınc və xəncər qədimdə olduğu kimi orta əsrlərdə də əlbəyaxa döyüş silahı kimi geniş istfadə edilmişdir. Bu dövrün anlamına görə əgər döyüşçü bütün silahlarla silahlanıb ancaq qılıncı yox idisə, onun silahlanması qaneedici hesab olunmurdu. Qədim və ota əsrlərdə digər silahlardan fərqli olaraq bütün qoşun növləri qılıncla silahlanırdı. 1967-ci ildə Bakıda aparılan arxeoloji qazıntılar zamanı qədim mədəni təbəqənin 4.3m dərinliyindən bir ədəd sulgucunun ucu qırılmış, qalmış uzunluğu isə 22 sm olan xəncər tiyəsi tapılmışdır.

Xəncərin Azərbaycan ərazisində geniş yayılmasının bir göstəricisi də arxeoloji qazıntılar nəticəsində Bakıda aşkar edilmiş XIV - XVII əsrlərə aid məzar daşlarının üzərində ox, kaman, qalxan və s. silahlarla yanaşı, qılınc və xəncər rəsmlərinin təsvirləridir. Döyüşçülərin dəfn olunduğu bu baş daşlarındakı silahlar içərisində qılınc və xəncərin olması faktı həmin dövrdə ordu həyatında bu növ silahlardan kütləvi şəkildə istifadə edilməsi tarixi mənbələrin məlumatını təsdiq edir.

*(ardı var)*

***Gülşən HÜSEYNOVA***
***Azərbaycan Hərb Tarixi Muzeyinin əməkdaşı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi***